UOT 159.9

**Nigar Çingiz qızı Hüseynova**
fəlsəfə doktoru proqramı üzrə doktorant
Bakı Dövlət Universiteti
https://orcid.org/0000-0002-0741-6194
https://doi.org/10.69682/azrt.2024.91(1).244-250

# TƏLƏBƏLƏRƏ GENDER BƏRABƏRLİYİNİN AŞILANMASINDA AİLƏDAXİLİ MÜNASİBƏTLƏRİN VƏ MİLLİ MENTALİTETİN TƏSİR İMKANLARI

**Нигяр Чингиз гызы Гусейнова**
докторант по программе доктора философии
Бакинский государственный университет

# ВОЗМОЖНОСТИ ВЛИЯНИЯ СЕМЕЙНЫХ ОТНОШЕНИЙ И НАЦИОНАЛЬНОГО МЕНТАЛИТЕТА НА ПРОДВИЖЕНИЕ ГЕНДЕРНОГО РАВЕНСТВА СТУДЕНТОВ

**Nigar Chingiz Huseynova**
doctorial student in the program of doctor of philosophy
Baku State University

# POSSIBILITIES OF INFLUENCE OF FAMILY RELATIONS AND NATIONAL MENTALITY IN PROMOTING GENDER EQUALITY TO STUDENTS

**Xülasə.** Məqalədə tələbələrə gender bərabərliyi dəyərlərinin öyrədilməsində Azərbaycan ailəsinə məxsus ailədaxili münasibətlərin və milli mentalitetin diqqətə alınması ilə bağlı müxtəlif məsələlərə toxunulmuşdur. Ailədaxili münasibətlər öz əsasını ailənin üzvləri arasında hörmət və dəstək prinsiplərində tapır. Tələbələrin gender bərabərliyi dəyərlərini öyrənmələri üçün bu münasibətlərin sağlam və müsbət olması əhəmiyyətli rol oynayır. Ailə üzvlərinin tələbələri dəstəkləməsi onların öz bacarıqlarını tam şəkildə inkişaf etdirmələrini təmin edir. Məqalədə bu münasibətlərdən bəhs edilərkən, əsas məsələlərdən biri kimi qızlara verilən tərbiyədəki stereotiplərin aradan qaldırılması və onların öz bacarıqlarını tam şəkildə inkişaf etdirməsinin təmin edilməsi üçün əhəmiyyətli addımlar atılmalı olduğu qeyd edilir. Bundan əlavə, gənclərə gender bərabərliyi dəyərlərinin öyrədilməsində milli mentalitetin də diqqətə alınması məsələsindən bəhs edilərkən qeyd edilir ki, milli mentalitetin öyrənilməsi tələbələrə öz milli mənəvi dəyərlərini anlamağa, öz cinsi identikliklərini formalaşdırmağa və özünü daha yaxşı tanımağa imkan verir.
***Açar sözlər:*** *tələbə, gender bərabərliyi, dəyərlər, ailədaxili münasibət, müntalitet*

**Резюме.** В статье затронуты различные вопросы, связанные с учетом семейных отношений и национального менталитета азербайджанской семьи при обучении студентов ценностям гендерного равенства. Семейные отношения строятся на принципах уважения и поддержки между членами семьи. Здоровые и позитивные отношения играют важную роль в усвоении студентами ценностей гендерного равенства. Поддержка членов семьи гарантирует студентам, что они смогут полностью развить свои навыки. Говоря об этих отношениях в статье, отмечается, что в качестве одного из главных вопросов необходимо предпринять существенные шаги по устранению стереотипов в воспитании девочек и обеспечению полноценного развития у них своих способностей. Кроме того, при обсуждении вопроса учета национального менталитета при обучении молодежи ценностям гендерного равенства отмечается, что изучение национального менталитета позволяет студентам понять свои национальные моральные ценности, сформировать свою гендерную идентичность и лучше узнать себя.
***Ключевые слова:*** *студент, гендерное равенство, ценности, семейные отношения, менталитет*

**Summary.** In the article, various issues related to the consideration of family relations and national mentality of the Azerbaijani family in teaching the values of gender equality to students were touched upon.

Family relationships are based on the principles of respect and support among family members. Healthy and positive relationships play an important role for students to learn the values of gender equality. Having family members support students ensures that they can fully develop their skills. When talking about these relations in the article, it is noted that as one of the main issues, significant steps should be taken to eliminate stereotypes in the upbringing of girls and to ensure that they fully develop their skills. In addition, when discussing the issue of taking into account the national mentality in teaching the values of gender equality to young people, it is noted that the study of the national mentality allows students to understand their national moral values, form their gender identity and get to know themselves better

***Key words:*** *student, gender equality, values, family relationship, mentality*

Azərbaycan ailəsi öz ənənələri və dəyərləri ilə möhkəmlənmiş bir mədəniyyətə malikdir. Bu mədəniyyətin əsasını isə ailədaxili münasibətlər və milli mentalitet təşkil edir. Tələbələrə gender bərabərliyini öyrətmək məsələsində bu münasibətlər və mentalitetin diqqətə alınması, onların sosial və mədəni inkişafını dəstəkləyəcək və toplumun bütövlüyünü möhkəmləndirəcək əhəmiyyətli bir addım atmağa kömək edə bilər. Ümumiyyətlə, son illərdə gender bərabərliyi mövzusu dünya üzrə geniş təbliğ olunur və bir çox ölkədə təhsil müəssisələri tələbələrə bu sahədə adekvat və ədalətli məlumatlar verməyə çalışırlar.

Azərbaycan təhsil sistemi tarixi boyunca dövlət rəhbərliyinin və ictimai lider Heydər Əliyevin səyləri ilə böyük inkişaf qazanmışdır. Ulu öndərin hakimiyyətə gəlməsindən etibarən orta və ali təhsilin sürətli inkişafı, ölkədə müəllim kadrlarının artırılması və beynəlxalq təhsil sahəsində müstəqil Azərbaycanın təmsil edilməsi mümkün olmuşdur.

Heydər Əliyev dövründə 170-dən çox ali məktəbdə 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil alması, ölkədə təhsilin səviyyəli olmasına töhfə olmuşdur. Bu dövrdə təhsil alan azərbaycanlıların sayı böyük miqdarda artmışdır. Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" fikri nəticəsində, ölkədə təhsil alanların çoxluğu və təhsil səviyyəsinin yüksəlməsi müşahidə olunmuşdur. 1970-ci illərdən 1980-ci illərin əvvəllərinə qədər ölkədən kənarda təhsil alanların sayı 97,7 faizə çatmışdır (5, s.11).

İlham Əliyevin prezidentliyi dövründə "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya-kommunikasiya texnologiyaları ilə təminatı Proqramı" təqdim olunaraq, məktəblər kompüterləşdirilmiş və texnologiyalardan daha çox istifadə edilmişdir.

YUNESKO Dünya Bankı və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq sayəsində texniki peşə təhsili və informasiya texnologiyalarının inkişafı sahəsində önəmli nailiyyətlər əldə edilmişdir.

Tələbələr üçün təqaüd proqramları, xaricdə təhsil imkanları artırılmış və ölkədəki təhsil sistemində beynəlxalq standartlara cavab verən dəyişikliklər aparılmışdır.

Ölkədə texniki peşə təhsilinin inkişafı da diqqət çəkir. İlham Əliyevin rəhbərliyi altında tərtib olunan "Texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı" ilə texniki peşə təhsilinin maddi-texniki bazası gücləndirilib, idarəetmə strukturu təkmilləşdirilmişdir (5, s.11).

Ölkədəki təhsil sistemi inkişaf etməyə davam edir və təhsilə göstərilən diqqət və inkişaf sürəti ölkənin gələcəyini təmin edən əsas ünsürlərdən biri kimi qalmaqdadır. Amma, bununla belə hələ də bəzi problemlər qalmaqdadır. Belə ki, UNESCO-nun hesabatına görə, dünyada inkişaf etmiş ölkələrdə 15-24 yaş aralığında 200 milyon gəncin tam ibtidai təhsili yoxdur. Azərbaycanla bağlı hesabatın nəticələrinə görə, ölkədə təhsil səviyyəsi fərqlidir. Azərbaycan əhalisinin bir hissəsi ibtidai təhsil belə almayıb. Gənc qızlar arasında iş təminatında gender balansında problem yaşanmaqda, statistikaya əsasən, onlar daha az maaş ödənilən işlərdə çalışmağa məcbur qalır. Bu məsələ kənd yerlərində daha çox müşahidə olunur (8).

Onu da qeyd edək ki, Azərbaycan Demokratik Cümhuriyyəti 28 May 1918-ci ildə müstəqil dövlət kimi fəaliyyətə başladıqdan sonra qadınlara seçki və seçilmə haqqını verən ilk dövlətdir. Bu, o vaxtda qəbul olunmuş qanunla təmin edilmişdir.

Azərbaycan Demokratik Cümhuriyyətinin qurulmasından sonra 1920-ci ildə Sovet İttifaqı Azərbaycanı işğal etdi və bu hüquqlar müvəqqəti olaraq məhdudlaşdırıldı. Lakin Azərbaycan Sovet Sosialist Respublikası 1991-ci ildə Sovet İttifaqının dağılması ilə müstəqillik elan etdik-

dən sonra qadınların seçki və seçilmə haqqı yenidən tam şəkildə tanındı.

Azərbaycan Respublikası müstəqil dövlət kimi fəaliyyət göstərdikdən sonra da bu hüquqları gücləndirmiş və qadınların cəmiyyətdə fəal iştirakını artırmışdır.

Azərbaycanda qızlar və oğlanlar birgə təhsil almağı əvvəlki dövrlərdən başlayaraq cəmiyyətdə böyük inkişaf və dəyişikliklərə səbəb olmuşdur. İlk dövrlərdə cəmiyyətdə müstəqil təhsil almağa nail olan qızlar sayı az idi. Lakin indiki vaxtlarda Azərbaycan qız və oğlan uşaqlarının birgə təhsil almasına imkan verən cəmiyyəti üçün böyük nailiyyətlər əldə etmişdir. Bu, bir neçə ətraflı səbəblərdən irəli gəlir:

Dövlət tərəfindən təminat: Azərbaycan Respublikası hökuməti təhsil sektoruna geniş investisiyalar qoymuş və bu sahədə hender bərabərliyin təminatı üçün proqramlar həyata keçirmiştir. Bu proqramlar qız və oğlanların eyni imkanlara sahib olmasını təmin edir.

Cəmiyyətin dəyişilməsi: Azərbaycan cəmiyyəti zamanla dəyişmiş və gələcək nəsillərin təhsilinə verilən əhəmiyyəti daha yüksək qiymətləndirmişdir. Bu dəyişikliklər nəticəsində qızlar və oğlanlar arasında təhsil sahəsində eyni imkanlara sahib olmağı ənənəvi olaraq qəbul etmişdir.

İnformasiya texnologiyalarının inkişafı: İnformasiya texnologiyalarının sürətli inkişafı gender bərabərliyin tətbiqini daha da asanlaşdırmışdır. Onlayn təhsil imkanları hər hansı bir gender fərqini nəzərə almadan bütün tələbələr üçün təqdim edilir.

Qadın hüquqları qorunması: Azərbaycan qadın hüquqlarını qorumaq üçün bir sıra qanun və tədbirlər qəbul etmişdir. Bu, qızların təhsil almasını və digər sahələrdə fəal iştirakını dəstəkləyir.

Bu cür dəyişikliklər nəticəsində Azərbaycan cəmiyyətində qız və oğlan uşaqları arasında təhsil sahəsində bərabərliyin təmin edilməsi mümkün olmuşdur.

Gender bərabərliyi qadın və kişilərin sosial, iqtisadi və siyasi sahələrdə bərabər imkanlara və hüquqlara sahib olmağını təmin edən bir prinsipdir. Bu prinsipin tələbələrə tədris edilməsi isə cəmiyyətin inkişafına təsir edir. Ümumiyyətlə, tələbələri gender bərabərliyi ruhunda tərbiyə etmək vacibdir və bu duyğuları uşaqlıqdan onlara aşılamaq gərəkdir. İlk olaraq ailədən başlanan bu tərbiyə daha sonralar orta məktəbdə və ali təhsil müəssisələrində davam etdirilir. Belə ki, gənc nəslin gender tərbiyəsi əsasən ailə tərəfindən formalaşdırılır və bu prosesdə ailə, həm yazılmış, həm də yazılmamış qanunlar və normativlər təsir göstərir.

Hər bir şəxsin həyatında bənzərsiz bir mövqe tutan və cəmiyyətin sosial nüvəsi kimi xidmət edən təhsil ailə ilə fərd arasındakı münasibətlərə yönəlmişdir. Belə ki, ailə həm uşaqlar, həm də böyüklər üçün tərbiyə ocağıdır. Bu mənada, N.Quliyeva yazır ki: "Yaşlı nəsildən gənc nəslə ötürülən müəyyən tarixi dövrlərdə həyatın maddi və mənəvi ehtiyaclarından yaranan əxlaq normaları və davranış qaydaları ailə daxilində formalaşır və nəsildən-nəslə keçir" (4, s.104).

Ailədaxili münasibətlər tələbələrin cəmiyyətdəki rolu və məsuliyyətlərinin formalaşmasında əhəmiyyətli bir rola malikdir. Ailə cəmiyyətin əsas vahidi olduğundan, ailə daxilində mövcud olan qarşılıqlı münasibətləri özündə təcəssüm etdirir. Başqa sözlə, "ailə münasibətləri kommunikasiya ənənələrindən, cəmiyyətin sosial və iqtisadi vəziyyətindən, ailənin cəmiyyətdən asılı olmasından, ər və arvadın ailə təsərrüfatını necə idarə etməsindən, kimin idarə etdiyindən asılıdır" (2, s.108).

Gender əsaslı ailə quruluşunun yaradılmasında iştirak edən əsas şəxslərin ata və ana olduğunu nəzərə alsaq, onların ailədəki rolları və bir-biri ilə qarşılıqlı əlaqələri mühüm təhsil əhəmiyyətinə malikdir. Bundan əlavə, onların mənəvi keyfiyyətləri uşağın bir şəxs kimi inkişafı üçün çox vacibdir. Professor X. Fətəliyevə görə, uşağın böyüməsi bir an və ya bir gün ərzində baş verən qəfil proses deyil. Müşahidələri, eşitmə təcrübələri, valideynlərlə əlaqəsi, söhbətləri və əməyə, həyata baxışları da daxil olmaqla ətrafdakı məlumatları tədricən mənimsəyir (3, s.171).

Valideynlərin ailədəki təsiri təhsil prosesinin bir neçə aspektində özünü göstərir. Valideynlərin arasındakı münasibətlərdəki gender dinamikası ailədə hər iki cinsin uşaqlarını necə böyütdüklərində aydın görünür.

Ailə münasibətlərində gərginliyi, fiziki və mənəvi zorakılığı daim müşahidə edən uşaqlar gender təhsili almaqda çətinliklərlə qarşılaşırlar ki, bu da gələcəkdə qurulan ailələrdəki böhranlarda özünü büruzə verir. Xüsusən də bu cür ailələrdə qız uşaqları böyüdükdə əks cinsin nü-

mayəndələri ilə düzgün münasibət qurmağa çalışarkən çətinliklərlə qarşılaşırlar. Bu qızlar gələcək ailə həyatlarında ərlərinin onlara həvalə etdikləri bütün vəzifələri itaətkarlıqla yerinə yetirən şəxsiyyətlərə çevrilərək, gender hüquqlarından məhrum olmağa öyrəşirlər və buna adi hal kimi baxırlar.

Valideynlər gələcək vətəndaşları, cinsindən asılı olmayaraq bərabər hüquqlara sahib şəxsiyyətləri yetişdirdiklərini bilməlidirlər.

Azərbaycan ailəsinin həm Qərb, həm də Şərq mədəniyyətlərini əhatə edən cəmiyyət kimi tanınması hazırki dövrün ümumi ictimai mənzərəsindən qaynaqlanır. Bu baxımdan gender məsələsini ailə məsələlərindən kənarlaşdırmaq düzgün deyil. Çünki ailə və qadın problemlərinin dərin tarixi kökləri var. Ailədaxili münasibətlərini gender nöqteyi-nəzərindən dəqiq öyrənmək və onları effektiv şəkildə qurmaq üçün gender problemi haqqında biliklərə sahib olmaq vacibdir. Nəzərə almaq vacibdir ki, Azərbaycan ailəyə ciddi yanaşması ilə bütün digər ölkələr arasında fərqlənir.

Ailə dinamikasını gender məsələləri prizmasından nəzərdən keçirərkən zamanın sınağından çıxmış uzun müddət yazılmamış normaları, eləcə də Azərbaycanın çoxmillətli olduğunu nəzərə almaq çox vacibdir. Azərbaycan ailəsində gender yanaşması bu baxımdan fərqliliyi ilə seçilməlidir. Bu fərq təkcə bizim ailələrin başqa xalqlardan nə ilə seçildiyində deyil, həm də müxtəlif regionlarda qadına münasibətdə fərqliliyində özünü göstərir (6, s. 61).

Bu gün Azərbaycan ailələrində ər-arvad arasında ev vəzifələrinin ədalətli şəkildə bölüşdürülməməsinin şahidi oluruq. Əslində bu keçmişin zərərli qalığı olaraq hələ də qalır. Ev vəzifələrinin ədalətli bölüşdürülməsi, qanunun tələb etdiyi kimi, hər bir ailə üzvünün faktiki imkanlarını nəzərə alan ailə həyatının əsas prinsipidir.

Ev vəzifələri kontekstində ər-arvad arasında qarşılıqlı hörmət, diqqət və qayğı gender bərabərliyini yaradır. Ailədə ev işlərində hər iki valideynin könüllü əməkdaşlığı və qarşılıqlı dəstəyi uşaqlarda gender bərabərliyinin möhkəmləndirilməsi üçün mühüm tərbiyə əhəmiyyətinə malikdir. Ailədə xeyirxahlıq və səmimiyyət öz-özünə deyil, ər-arvadın qarşılıqlı səyləri, qayğısı, sevgisi, hörməti və işgüzarlığı nəticəsində yaradılır (7, s. 84).

Nəticədə, ailə münasibətlərinin əsasını təşkil edən ailənin mənəvi mədəniyyəti cəmiyyətin mənəvi mədəniyyətinin güzgüsüdür. O cümlədən də, "sosial funksiyanı yerinə yetirməklə ailə mədəni, sosial və mənəvi səviyyələrinə görə şəxsiyyət yetişdirir" (2, s.106).

Bu gün ailə birliyi çərçivəsində gender maarifçiliyinin başlanması gələcək nəsillərin bir-birinin hüquqlarına qarşılıqlı hörmət mədəniyyətini inkişaf etdirməsinin əsasını qoyacaqdır.

Ailədəki gender bərabərliyi bəzən ailə işlərində qadınların hökmranlığının məcburi təsdiqlənməsi kimi şərh edən şəxslər tərəfindən səhv yozulur. Qanuni olaraq kişilər və qadınlar ailədə bərabər sayılırlar. Ailənin idarə edilməsinə və uşaq tərbiyəsinə eyni dərəcədə töhfə verəcəkləri gözlənilir. Ailədə gender maarifçiliyinin başlanması üçün vacib şərt qərar qəbuletmə prosesində qarşılıqlı iştirakla müşayiət olunan həm ər, həm də arvad tərəfindən bütün ailə problemlərinin açıq və əhatəli müzakirəsidir.

Elza Mollayeva qeyd edir ki: "Əslində ailədə liderin kişi, yaxud da qadın olması onun cinsi mənsubiyyətilə deyil, həmin şəxsin ailəni düzgün idarə edə bilmək qabiliyyətilə müəyyən olunmalıdır" (6, s.64).

Nadir hallarda ailədəki həyat yoldaşları arasındakı münasibətlərin ümumi tarazlığı pozulduqda, hər biri lider mövqe tutmağa çalışır. Ailədə uşaqların tərbiyəsi və böyüməsi məsələlərini müzakirə edərkən ənənəvi liderlik metodları daha az əhəmiyyət kəsb edir. Çünki uşaqların rifahı və inkişafı üçün spirtli içki düşgünü olan lider atadansa ayğıkeş bir ana daha yaxşıdır, ya da bunu əksini də söyləmək mümkündür. Ər və arvadın liderlik rollarını öz üzərinə götürmək istəyi onların nüfuzunun azalmasına səbəb olur və ailədəki ümumi tərbiyə prosesini pozur.

Bunlardan əlavə də, ailədə "kişi-qadın" vəzifələrinin bölünməsini tənzimləyən patriarxal standartlar nəticəsində gənc nəslin düzgün gender tərbiyəsi ilə bağlı müxtəlif problemlər mövcuddur. Çünki ər və arvadın sosial tələbləri qarşılıqlı anlaşmaya əsaslanan bir əlaqə olan ailənin gücünün hərəkətverici qüvvəsidir. Azərbaycan ailələrində fakt budur ki, qadın öz əməyinə görə, kişi isə öz əməyinə görə məsuliyyət daşıyır. Digər tərəfdən, təhsil prosesində cinsiyyətə görə əmək bölgüsündə "yalnız kişi" və ya

"yalnız qadın" işi kimi təsnif etmək, onları iki kateqoriyaya bölmək düzgün deyil.

Bəzən istər kişi, istərsə də qadın o qədər çətin vəziyyətdə ola bilər ki, elə şəraitdə onun həm kişi, həm də qadınlarla əlaqəli vəzifələri idarə etmək bacarığı olduqca faydalı ola bilər. Çünki gender bərabərliyinə əsaslandıqda ailənin maddi və mənəvi yükünün hər iki cins arasında bərabər paylanması və bu çətinliklərin aradan qaldırılması daha asan olur. Ailənin möhkəmliyi və ailədə böyüyən uşaqların düzgün inkişafı üçün ər və arvadın bir-birlərinə dəstək olmaları və bütün maneələri birlikdə aşmaları faydalıdır. Bir-birinin hüquqlarına hörmət ailə daxilindəki münasibətlərə də müsbət təsir göstərir.

Ailədə gender bərabərliyini müzakirə edərkən qadınların qarşılaşa biləcəyi həm mənəvi, həm də fiziki zorakılığı nəzərə almaq vacibdir. Müasir qloballaşma dövründə qadınlar ən yüksək şiddət səviyyəsinin ağırlığını daşıyırlar. Onların hüquqları həm ailələri daxilində, həm də bütövlükdə cəmiyyətdə pozulur. Təəssüf ki, bu hal bəzi Azərbaycan ailələrində də oxşar şəkildə müşahidə oluna bilər.

Qadınlarımızın hüquq pozuntuları qarşısında göstərdikləri passivlik və onların milli adət və ənənələr naminə bu cür pozuntulara dözmək istəyi gender təhsili və tərbiyəsi, eləcə də ölkəmizdə qadınlara verilən hüquqlar barədə kifayət qədər məlumatlılığın olmadığını göstərir.

Gənc nəslin ailədə gender məsələlərini effektiv şəkildə öyrənməsi üçün hər iki valideynin gender baxımından nümunəvi davranış nümayiş etdirməsi vacibdir. Bu, öyrənmə nəticələrini əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər. Ailədəki bir qadına qarşı nəzakət göstərən və ləyaqətini qoruyan ata, övladları tərəfindən yalnız nümunəvi bir ailə başçısı kimi deyil, həm də əsl kişinin keyfiyyətlərini təcəssüm etdirən bir insan kimi hörmət edilir. Belə bir evdə böyüyən uşaqlar atalarında təcəssüm olunan "ailənin mədəni lideri" anlayışını müşahidə edirlər.

Müasir dövrdə isə qadına ənənəvi münasibət dəyişilir, çünki qadınlar getdikcə yalnız ev vəzifələrinə və uşaq tərbiyəsinə diqqət yetirməkdən daha çox cəmiyyətdə fəal iştirak edirlər.

Ümumiyyətlə, gender tərbiyəsi prosesi çox kompleksdir və müxtəlif təsir faktorları altında formalaşır. Ailə, təhsil müəssisələri, cəmiyyət kimi başqa sahələr də bu prosesdə önəmli rola malikdir. Gənc nəslin cinsi identikliyi və rolu məhz bu müxtəlif təsir faktorları ilə birlikdə formalaşır və bu faktorların bütövlükdə nəzərə alınması, ədalətli və bərabər gender tərbiyəsi üçün vacibdir.

Bununla belə, gənclərin gender tərbiyəsi prosesi milli xüsusiyyətlər əsasında nəzərdə tutulmalıdır. Hər bir cəmiyyət öz milli və mənəvi dəyərlərini, normativlərini və tərbiyə anlayışını özündə əks etdirir. Milli xüsusiyyətlər gənclərin cinsi identiklik inkişafında və gender rolu normativlərinin təyin edilməsində təsirli bir rola malik ola bilər. Milli xüsusiyyətlərin nəzərdə tutulması gənclərə öz milli mənəvi və etik dəyərlərini öyrənmək və anlamaq imkanı yaradır. Bu, gender identikliklərin və cinsiyyət rolu normativlərinin hansı mənada təsir göstərməsi təşkil edə bilər. Milli tərbiyə gənclərin öz milli mənəvi dəyərlərini özündə aşılamağa, anlamağa və hər ölkənin ictimai və mədəni kontekstini öyrənməyə kömək edir.

Ən həssas və gözəl mövzuların başında gələn milli xüsusiyyətlər hər bir xalqın özündə möhkəmlənmiş və fərqli bir mədəniyyətə sahib olduğunu sübut edir. Bu xüsusiyyətlər milli mentaliteti formalaşdıran və bir xalqın həyatını təşkil edən ən önəmli cəhətlərdən biridir. Milli xüsusiyyətlərin və milli mentalitetin diqqətə alınması təhsil prosesində əldə ediləcək nəticənin həm qadınlar, həm də kişilər üçün vacib olmasına zəmin yaradacaqdır. Bu, gənc nəslə gender bərabərliyinin aşılandığı bir hal olacaq.

Müasir dövrün ən mühüm məsələlərindən biri olan Azərbaycan cəmiyyətinin, iqtisadiyyatının və təhsilinin Avropa məkanına inteqrasiyası kontekstində ənənələrimizə və milli irsimizə yeni münasibət formalaşmasıdır. Təhsil sistemi bir ölkənin inkişafında ən əhəmiyyətli faktorlardan biridir. Avropa standartlarına uyğun təhsil Azərbaycanın beynəlxalq əlaqələrdə olmağını dəstəkləyəcək və ölkəni inkişaf etdirəcək. Bu mənada, milli irsin və ənənələrimizin təhsil sistemi içində mövcudluğu və inkişafı da vacibdir. Ənənələrimiz və milli irsimiz cəmiyyətin dünyagörüşünü formalaşdırmaqda və genişləndirməkdə önəmli bir rola sahibdir.

Ən əsas məsələlərdən biri qızların milli mentalitetin və ənənələrin aşılanması ilə özünü daha çox məhdudlaşdırılmış hiss etmələridir. Bu, onların müstəqil düşünmə və özlərini inki-

şaf etdirmələrinə mane ola bilər. Qızların tərbiyəsində ağır nəzarət və məhdudiyyətlər onların öz bacarıqlarını tam şəkildə inkişaf etdirmələrinə, sərbəst düşünmələrinə və müstəqil fəaliyyət göstərmələrinə zərər verir. Buna əlavə olaraq, qızların üzərinə daha çox milli mənəvi və etik-əxlaqi məsuliyyət düşməsi, onların təhsil və karyera sahəsində daha məhdudiyyətli seçimlər etmələrinə səbəb ola bilər. Gözlənilən ictimai və ailə tələbələri qızların müstəqil fikirlərini, maraqlarını və həyat hədəflərini həyata keçirməsinin qarşısını ala bilər.

Müstəqil düşünmə, yaradıcılıq, liderlik bacarığı və müstəqil fəaliyyət göstərmə bacarığı, cins fərqlərə əsaslanan tərbiyənin bir hissəsi olmalıdır. Qızlar daha çox xoşladıqları sahələrdə təhsil almalı və özlərini həyatlarının müxtəlif sahələrində inkişaf etdirmək imkanına sahib olmalıdırlar. Təhsil və tərbiyənin əsas məqsədi qızlar özlərini güclü və müstəqil düşünən şəxslər kimi yetişdirmələri olmalıdır.

Ənənəvi tərbiyədə cinslər arasındakı gender bərabərsizliyi özünün daha açıq şəkildə büruzə verir: qızlar tərbiyə olunarkən onları daha çox qeyri-müstəqilliyə, asılılığa həvəsləndirirlər. Bunun da əsasında qadınların azadlığı və müstəqilliyi barəsindəki köhnəlmiş düzgün olmayan fikirlər olur. Oğlanların tərbiyəsi isə qızların tərbiyəsindən tamamilə fərqlidir: müstəqillik, hər hansı bir çətinliyi dəf etmək və hədəfə doğru irəliləmək bacarığı, güclü iradə və aqressivlik (1, s.26).

Qızlara tərbiyə verilir ki, onlar daha çox incə və diqqətli olmalı, müstəqil düşünmək yerinə başqalarının nəzdində daha çox rəy qazanmağa nail olmalıdırlar. Oğlanlar üçün isə, ənənəvi olaraq daha müstəqil və qərarverici olmağa töhfə verilir, onlara daha sərbəst iradə və fəaliyyət göstərmək üçün mühit yaradılır. Bu fərqlər təhsil müəssisələrinə keçid etdikdə də davam edir. Məktəblərdə və universitetlərdə qız və oğlan arasında təxminən eyni şərtlərdə təhsil almalarına baxmayaraq, sosial mühit və tələbələr arasında formalaşan cins stereotipləri onların öz bacarıqlarını tam şəkildə inkişaf etdirmələrində məhdudiyyətlər yaradır. Həmçinin, bu, cəmiyyətdəki cins fərqlərinin daha da güclənməsinə və müstəqil düşünmə bacarığının qarşısının alınmasına səbəb ola bilər.

Gender fərqliliklərinin qarşısının alınmaması cəmiyyətdə inkişaf etmiş və bərabər imkanlar təmin edən bir nəslin formalaşmasına mane olmaqdadır. Bu ənənəyə əsaslanan tərbiyənin dəyişdirilməsi və təhsil sistemində cinslər arasında bərabərliyi təmin etmək üçün daha inklüziv bir yanaşmanın tətbiqi sosial bərabərliyi təmin etmək üçün əhəmiyyətli bir addımdır. Həmçinin gender bərabərliyinə çatmaq üçün tərbiyə prosesindəki köhnə cinsiyyət stereotiplərinin qaldırılması əslində ən əhəmiyyətli məsələlərdəndir.

Beləliklə, gənclərin gender tərbiyəsi onların cinsi identiklik inkişafında və gender normativlərinin təyin edilməsində əhəmiyyətli bir rola malikdir. Bu proses milli xüsusiyyətlərə uyğun şəkildə nəzərdə tutulmalıdır, çünki hər bir cəmiyyət özünəməxsus mənəvi dəyərlər, normativlər və tərbiyə anlayışına sahibdir. Milli xüsusiyyətlər adət-ənənələr, mənəvi dəyərlər, ailədaxili münasibətlər və cins fərqlərin ifadə edilməsi üçün təyin olunan normativ davranış etalonları ilə öz əksini tapmaqda böyük rol oynayır. Hər bir millətin fərqli adət-ənənələri və mentalitetləri mövcuddur. Azərbaycan zəngin tarixi və ənənələri ilə tanınan bir ölkədir. Azərbaycan ailəsinin mədəniyyəti və milli mentaliteti, tələbələrə gender bərabərliyini öyrətməkdə əhəmiyyətli bir rola sahibdir.

**Problemin aktuallığı.** Ailədaxili münasibətlərin və milli mentalitetin araşdırılması və tələbələrə gender bərabərliyinin aşılanmasında bu məsələlərin təsir imkanları xüsusi aktuallıq kəsb edir. Bunlar həm təhsil sistemləri, həm də cəmiyyət üçün əhəmiyyətli bir əsas təşkil edir.

**Problemin elmi yeniliyi.** Məqalə çərçivəsində tələbələrə gender bərabərliyinin aşılanmasında ailədaxili münasibətlərin və milli mentalitetin təsir imkanları hərtərəfli təhlil edilmiş, yeni yollar araşdırılmışdır.

**Problemin tətbiqi əhəmiyyəti.** Məqalədə irəli sürülən ideyalar tələbələrə düzgün gender bərabərliyinin formalaşdırılmasında nəzərə alına bilər.

**Ədəbiyyat:**

1. Abbasov Ə., Qaraşov H. "Azərbaycanda gender problemləri: mövcud vəziyyət və əsas istiqamətlərdə inkişaf". – Bakı, 2014. – 327 s.

2. Ağayev, Ə. "Sosial pedaqogika". / Ə. Ağayev, Y. Rzayeva, T.M. Hüseynova, T.Ə. Vahabova. – Bakı, 2008. – 246 s.
3. Əlizadə Ə.Ə., Abbasov A.N. "Ailə həyatının etika və psixologiyası". – Bakı: Maarif. – 1988, – 189 s.
4. Quliyeva N. "Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti". – Bakı, 2005. – 346 s.
5. Qurbanlı Tapdıq "Azərbaycan təhsili: keçmiş və bu gün" məqalə. Səs. – 2010. 19 iyun. – s. 11.
6. Mollayeva, E. Ə. "Gender tərbiyəsi: tarixi, nəzəriyyəsi və müasir problemləri". / E. Ə. Mollayeva. – Bakı: Elm və təhsil, 2013. – 268 s.
7. Talıbov, Y.R. "Gənclərin mənəvi tərbiyə problemləri". / Y.R., Talıbov, F.B. Sadıqov, S.M. Quliyev. – Bakı: Ünsiyyət, 1998. – 152s.
8. https://kulis.az/xeber/senet/-2802

**E-mail:** nigar_huseynova_2020@mail.ru
**Rəyçilər:** *ped. fəls.dok.* **G.T. Eminova,**
*ped. fəls.dok.* **S.V. Rüstəmova**
**Redaksiyaya daxil olub:** 29.01.2024.